**Toyda analarının ölüm x�b�rini aldılar - Qayıdanda q�zaya düşdül�r (Yenil�nib)**
10.09.16 23:56




**Ş�ki rayonunda beş n�f�rin x�sar�t alması il� n�tic�l�n�n ağır yol-n�qliyyat hadis�si baş verib.**

Hadisə rayonun Cuma kəndi ərazisində qeydə alınıb.

Nəticədə 5 nəfər ağır yaralanıb. Yaralılar təcili tibbi yardım maşını ilə Şəki Rayon Mərkəzi Xəstəxanasına (RMX) yerləşdirilib.

Xəstəxanadan bildirilib ki, vəziyyətləri ağır olan yaralıların hələlik şəxsiyyətləri dəqiqləşdirilir.

Faktla bağlı araşdırmalara başlanılıb.

Report.az

**16:19**
***

Toyda analarının ölüm xəbərini alaraq qayıdan şəxslər yolda qəzaya düşüblər.

**AzNews.az** Region TV-yə istinadən xəbər verir ki, Qaxın Turaclı kənd sakini Həsən Həsənovun idarə etdiyi “Mercedes” markalı avtomobillə, eyni istiqamətdə hərəkət edən Şəkinin Cuma kəndi ərazisində yaşayan məcburi köçkün Vaqif Abdullayevin idarə etdiyi VAZ 21 011 markalı avtomobil toqquşub.

Toqquşmanın təsirindən “Mercedes” markalı avtomobil yol kənarındakı çökəkliyə aşıb.

Hadisə nəticəsində “Mercedes”də olan 4 sərnişin- Qaxın Turaclı kənd sakinləri Vəliyeva Diləfruz Əsəd qızı, Əsədova Tünzalə Məhəmməd qızı, Həsənova Sevgili Köçəri qızı və Həsənov Səbuhi Əsəd oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Xəsarət alanlar hadisə yerinə cəlb olunmuş təcili tibbi yardım briqadaları ilə Şəki MRX-yə çatdırılıb.

İlkin məlumatlara görə, qəzaya səbəb yüksək sürət və dönmə əməliyyatının düzgün yerinə yetirilməməsi olub. Qəza nəticəsində hər iki avtomobil yararsız hala düşüb.

Faktla bağlı araşdırmalar aparılır.

Qeyd edək ki, “Mercedes” markalı avtomobilin sürücü və sərnişinləri Mingəçevir rayonunda toyda olarkən onlara analarının öldüyü xəbərini veriblər və onlar məclisi tərk edərək dərhal Qax rayonuna yas mərasiminə tələsiblər.